**UOT 94 (479.24)**

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ (İƏT) YAXIN ŞƏRQ SİYASƏTİNDƏ İSRAİL-FƏLƏSTİN MÜNAQİŞƏSİ: MÜASİR VƏZİYYƏT

**A.P.ƏHMƏDOV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***elelyonnn@yahoo.com***

***Mən tərəfləri danışıqları bərpa etməyə çağırıram. İsrail gəlmələr üçün tikintiləri dayandırmalıdır. Fələstin İsrail ilə danışıqlar masasında oturmalıdır. Mən artıq fələstinlilərin niyə dövlət üçün müraciət etdiklərini başa düşürəm.***
**Pan Gi Mun**

*Yaxın Şərqdə sülh və əmin-amanlığın bərqərar olunmaması, bölgədə və bilavasitə regionda yaşayan müsəlmanların təhlükəsizliyinin təmin olunmasını, eləcə də Fələstin xalqının milli azadlıq mübarizəsinin İƏT və quruma üzv olan ölkələr tərəfindən dəstəklənməsini zəruri etmişdir. Qüds tarixən üç səmavi din mənsublarının yaşadığı ərazi olmuşdur. Yaşadığımız XXI əsr hər daşında bir tarix yatan Qüdsdə vəziyyətin tam dəyişdiyini, bölgədə mədəniyyətlər və konfessiyalararası dialoqun bərqərar olunması üçün siyasi diskriminasiyalara son qoyulmasını tələb edir. Uzun illər bu torpaqlarda yaşayan xalqlar arasında yaranmış gərginliyin tənzimlənməsi və problemin həll olunaraq, Fələstin xalqının suveren dövlət hüququnun tanınması istiqamətində İƏT-in son üç il ərzində beynəlxalq təşkilatlarla, xüsusilə BMT ilə əməkdaşlığı mürəkkəb siyasi şəraitdə müsbət nəticələr əldə etmək üçün ciddi addım kimi yüksək qiymətləndirilir.*

*Məqalədə İsrail-Fələstin münaqişəsinin son illərdə davam edən müasir vəziyyəti təhlil olunmuş, münaqişənin həllində İslam Əməkdaşlıq Təşkilatı və BMT-nin sülhməramlı missiyası tədqiq olunmuşdur.*

**Açar sözlər:** İƏT, BMT, Yaxın Şərq, Qüds, islam, əməkdaşlıq, təşkilat, dialoq, dövlət, müsəlman, tarix, siyasi, region

İƏT dünyada BMT-dən sonra ən böyük siyasi sülh təşkilatı olaraq ötən 40 ildən yuxarı vaxt ərzində beynəlxalq münasibətlər tarixinin formalaşmasında yaxından iştirak etmiş, eləcə də siyasi plüralizmin genişləndiyi XXI əsrdə sülhməramlı fəaliyyətini davam etdirməkdədir.

İƏT ölkələri müsəlmanların iştirakı ilə münaqişələrin aradan qaldırılması istiqamətində fəaliyyətləri ilə yanaşı tədqiqatlar aparaır və mötəbər tədbirlər keçirərək Avropa mədəniyyətilə İslam sivilizasiyası arasında əməkdaşlığa,

dialoqa nail olunmağı strateji perspektiv hesab edirlər. İƏT-in bu fəaliyyəti onun beynəlxalq aləmdə nüfuzunu və dünya siyasətinə təsirini daha da artırır [8, 67]. Bu baxımdan İƏT təsis olunduğu 1969-cu ildən sözügedən münaqişənin sülh yolu ilə nizamlanması, Fələstin qaçqınları probleminin həll olunması və nəhayət, bu dövlətin beynəlxalq aləmdə tanınması məsələsini siyasi fəaliyyətinin tərkib hissəsi olaraq qəbul etmiş və bu istiqamətdə səylərini artırmışdır. Müasir dövrdə, uzun illər ərəb dünyasının və islam ümmətinin qaçılmaz problemi olan Fələstin dövlətinin yaradılması, Fələstin xalqının siyasi, sosial-iqtisadi, mənəvi və mədəni problemlərinin həllində İƏT-in göstərdiyi tarixi fəaliyyət davam etməkdədir [7, 19]. Qüds işğaldan azad olunana qədər İƏT Baş katibliyinin Səudiyyə Ərəbistanının Ciddə şəhərində fəaliyyət göstərməsinə verilən razılıq təşkilatın bu işdə maraqlı tərəf kimi çıxış etməsini bir daha şərtləndirmiş olur. 1975-ci ildə isə İƏT tərəfindən Pakistanın Karaçi şəhərində Qüds fondu (Qüds komitəsinin) fəaliyyətə başlaması problemin həllində İƏT-in müsəlman dünyası tərərfindən birmənalı dəstəklənməsinə səbəb oldu [6,132,134].

İsrail-Fələstin münaqişəsi 2011-ci ildən yeni mərhələyə keçmişdir. BMT-də təmsil olunan İƏT və təşkilata daxil olan müsəlman ölkələrinin son illər ərzində münaqişənin həlli istiqamətində atdığı addımlar islam həmrəyliyinin bu işdə həlledici rol oynaya biləcəyini deməyə əsas verir. Müsəlman ölkələrinin strateji maraqlarının müdafiəçisi olan İƏT Baş katibliyi məsələ ilə bağlı bəyanatlarında Fələstinin müstəqil dövlət kimi dünya birliyində təmsil olunmasının vacibliyini qabardaraq, sülhün əldə olunmasını bölgədə və eləcə də regionda hökm sürən süni münaqişə ocaqlarının tədricən aradan qaldırılmasına əhəmiyyətli dərəcədə təsir edə biləcəyini şərh etməkdədir. Qərb dövlət rəsmilərinin Fələstinin suveren dövlət elan olunmasının vaxtının hələ yetişmədiyini söyləməsi münaqişənin acı nəticələrinin dərinləşməsinə və bölgədə qarşıdurma hallarının intensivləşməsinə rəvac verərək daimi sülhün əldə olunmasına ciddi maneə yaratmışdır. Lakin bir çox dövlətlər, müstəqil ekspertlər bunun tam əksini söyləməkdədir. Fələstin xalqının haqq və hüququnun tanınması bu ölkədə həyat səviyyəsinin yaxşılaşdırılması, iqtisadi göstəricilərin yüksəldilməsi üçün gələcəkdə xarici yardımlara da ehtiyac olmayacağını əks etdirir.

İƏT hal-hazırda Fələstin xalqına humanitar yardımlarını göndərməkdə davam edir. Belə bir mürəkkəb şəraitdə beynəlxalq müsəlman təşkilatı İƏT-dən həm humanitar həm də siyasi dəstək fələstinlilərin dünyadan təcrid olunmaması üçün son dərəcə zəruridir. Qeyd etmək lazımdır ki, İƏT yaxın 10 il ərzində müsəlman dünyasında siyasi, sosial-iqtisadi və mədəni fəaliyyətini genişləndirmək məqsədilə təsdiq etdiyi proqramında Fələstin probleminə xüsusi yer ayırmışdır. Münaqişənin həll olunması istiqamətində İƏT Baş katibliyinin BMT ilə əməkdaşlığının əhəmiyyəti qurumun fəaliyyət planının 9-cu bəndinin 1-ci maddəsində öz əksini tapmışdır: "*Fələstin və zəbt olunmuş ərəb əraziləri. 1967-ci ildə İsrailin işğal etdiyi Fələstin ərazilərindən, Şərqi Qüds daxil olmaqla, Suriyanın Colan yüksəkliklərindən, Təhlükəsizlik Şurası-*

*nın 425 saylı qətnaməsinə uyğun olaraq İsrail qoşunlarının hələ də nəzarətində saxladığı Livan torpaqlarından çıxarılmasına səy göstərilsin, habelə fələstinlilərin müqəddəratının təyini və paytaxtı əl-Qüds əl-Şərif olmaqla müstəqil dövlətinin yaradılması hüququnun səmərəli dəstəklənməsi həvəsləndirilsin*" [22]. Göründüyü kimi Şərqi Qüds də daxil olmaqla İƏT baş katibliyi ərəb probleminin həll olunmasında kifayət qədər aktiv fəaliyyət göstərərək islam həmrəyliyinin, problemlərin həllində əhəmiyyətini şərh etməkdədir.

1975-ci ildən BMT-də müşahidəçi statusunda çıxış edən İƏT qurum ilə əsaslı əməkdaşlıq əlaqələrinin yaradılmasına müvəffəq olur. BMT Baş Məclisinin 36-cı sessiyasında "BMT ilə İƏT arasında əməkdaşlıq haqqında" qətnamə qəbul olunur. Bu hüquqi sənəd təşkilatın üzvü olan ölkələrlə bərabər Fələstin xalqının da milli azadlıq mübarizəsinin müsəlman və digər dövlətlər tərərfindən dəstəklənməsinə şərait yaradır [6, 131].

İƏT xarici işlər nazirlərinin 2011-ci ilin 28 iyun tarixində Qazaxıstanın paytaxtı Astanada keçirilən 38-ci konfransında təşkilatın baş katibi Əkmələddin İhsanoğlu müstəqil Fələstin dövlətinin tanınması üçün səylərin gücləndirilməsinin vacib olduğunu qeyd edərək müsəlman və bütün dövlətləri problemin həllinə səsləməsi ciddi addımlar atmaq üçün kifayət qədər zəmin olduğunu, bunun üçün hər iki tərəfin iradə nümayiş etdirərək dialoqa açıq olmaları gərəkdiyini bildirir. Müsəlman dövlət başçılarına üzünü tutan Ə. İhsanoğlu demişdir: "*Təşkilata daxil olan ölkələrə çağırış edərək, Fələstini 1959-cu ilə qədərki sərhədlərdə tanımağa səsləyirəm*" [14]. Göründüyü kimi İƏT baş katibi müsəlman dövlət başçılarından Fələstinin azadlığının tanınması üçün təşkilata üzv olan ölkələrin bu məsələnin həllində birmənalı mövqeydən çıxış etmələrini qeyd etmiş və konkret fikir söyləmişdir.

O, Fələstinin bu günə qədər 116 ölkə, o cümlədən İƏT-ə daxil olan 55 ölkə tərəfindən tanındığını dilə gətirərək demişdir: "*Fələstindəki vəziyyət bizdə olduqca narahatlıq doğurur. İsrailin Qüdsü işğalı ümmətin müqqəddəs məkanları üçün böyük təhlükədir. Son aylar ərzində İsrailin müsəlmanların müqəddəs məkanlarını məhv etmək planları daha da fəallaşır. Və demək lazımdır ki, indi vəziyyət dalana dirənib. Buna görə də indi bizim hər birimiz müstəqil Fələstin dövlətinin yaradılmasına dəstək verməliyik və bu uzun müddət davam edən münaqişəyə son qoymalıyıq*" [15]. "Səhranın qübbəsi" də adlandırılan, Qüdsdə yerləşən əl-Əqsa məscidinə qarşı böyük təhlükənin olduğunu qeyd edən Ə. İhsanoğlu əslində Qurani Kərimdə adı çəkilən və islam peyğəmbəri Məhəmmədin həmin məsciddən meraca yüksəldiyini bir daha bütün dünya ictimaiyyətinin diqqətinə çatdıraraq, müsəlmanların ilk qibləsi sayılan, unikal dinlərarası abidənin dağıdılmasının yolverilməz olduğunu bəyan edir. Qeyd etmək lazımdır ki, İƏT-in təsis olunmasının əsas səbəblərindən biri, ərəb mənbələrinin bildirdiyi kimi əl-Əqsa məscidinin 1969-cu ildə bir yəhudi əsilli avstraliyalı tərəfindən yandırılması hadisəsi olmuşdur [1, 192]. Bugünkü gündə isə məscid ətrafında yəhudi arxeoloqları tərəfindən qazıntı-

ların aparılması İƏT Baş katibliyi və bir sıra təşkilat üzvlərinin narazılığını daha da artırmışdır.

Vəziyyətin dalana dirəndiyini qeyd edən Ə.İhsanoğlu təcili tədbirlərin görülməsi üçün addımlar atılmasını və Fələstinin müstəqil dövlətlər birliyi tərərfindən tanınması yolunda, islam həmrəyliyinin gücləndirilməsi naminə aparıcı müsəlman ölkələrinin bu məsələdə həssas davranmağını istəmişdir.

Münaqişə çox doğru olaraq uzun sürən münaqişə şəklində İƏT baş katibi tərərfindən xüsusilə vurğulanmışdır. 2011-ci ilin 31 oktyabr tarixində 107 dövlətin dəstəyi ilə Fələstinin YUNESKO-ya tamhüquqlu üzv seçilməsi isə İsrailin rəsmi dairələri tərəfindən heç də sülhməramlı addım kimi qiymətləndirilmədi [16]. Təəccüb doğuran məqamlardan biri İsrailin yaxın müttəfiqlərindən sayılan Fransanın qətnamənin lehinə səs verən dövlətlərin arasında olması idi. Fransa BMT-yə üzv ölkələrə Fələstinin müstəqilliyinin tanınması ilə bağlı ABŞ və İsrail maraqlarına yaxın bəyanatlarla çıxış etməyinə baxmayaraq bu dəfə tam fərqli mövqe nümayiş etdirdi. Lakin Fransanın bu addımı beynəlxalq ekspertlər tərəfindən birmənalı qarşılanmadı, əksinə seçki qabağı kampaniya olduğu da bildirildi [21]. Əslində Fələstinin YUNESKO-da qələbə qazanmasının səbəbkarlarının əksəriyyətini İƏT dövlətləri təşkil etmişdi. Səsvermədən bir müddət əvvəl İƏT baş katibinin bu yolda Fələstinə dəstəyin vacib olduğunu bildirməsi və bu dövlətin gələcəkdə BMT-də səsvermə yolu ilə tanınmasına töhfə verəcəyini bəyan etməsi müsbət nəticə verərək Fələstin xalqının ümidlərini bir qədər də artırmış oldu. BMT-nin ən böyük təhsil-elm və mədəniyyət təşkilatı olan YUNESKO-da Fələstin adına qazanılan qələbə İƏT və bu təşkilata üzv olan dövlətlərin ciddi iradəsi nəticəsində gerçəkləşdi.

Soyuq müharibə başa çatsa da, Yaxın Şərqdə Rusiya ilə ABŞ arasında maraqların toqquşması aktual olaraq qalır. Belə bir məqamda ABŞ və İsrail maraqlarına ciddi zərbə vuran Rusiya 2011-ci ilin 18 yanvar tarixində Fələstinin müstəqilliyini tanıdığını rəsmən bəyan etdi [10]. Bununla da Rusiya Yaxın Şərqdə öz maraqlarını qorumaq üçün ABŞ hökumətinə qarşı son dərəcə ciddi diplomatik addım atmış oldu. Rusiyadan fərqli olaraq Amerikanın Yaxın Şərqdəki maraqları hələ ki, İsrailin bu bölgədə həyata keçirdiyi siyasəti ilə üst-üstə düşməkdədir. Amerika prezidenti Barak Obama münaqişənin həll olunması üçün İsraili tələsdirmək əvəzinə bu dövlətin maraqlarından çıxış etməyi üstün tutur. Həm Amerika həm də İsrail bölgənin tam nəzarət altına alınması məqsədilə Fələstin probleminin nizamlanması və müstəqilliyin qazanılması üçün fələstinliləri bir qədər gözləməyə çağırır: *“Onillərdir davam edən bir münaqişənin qısa vaxt ərzində həll edilməsi mümkün deyil. Bölgəyə sülh BMT-nin qərarları ilə gəlsəydi, bu günə qədər gələrdi. Bölgədə birlikdə yaşayacaq xalqlar fələstinlilər və israillilərdir. Aralarındakı anlaşılmazlıqları qaldırmalı olanlar israillilər və fələstinlilərdir, biz deyilik. Fələstinlilər anlaşılmazlıqları həll etmədən müstəqil dövlət olmaq istəyirlər. İsrailin təhlükəsizliyi Amerika üçün çox əhəmiyyətlidir. İsrail ilə dostluğumuz dərin və əbədidir”* [20] deyən B. Obamanın çıxışından da göründüyü kimi, problemin

BMT çərçivəsində, səsvermə yolu ilə həllində Amerika maraqlı tərəf kimi çıxış etmək arzusunda deyil. Qısa vaxt ərzində münaqişənin həll edilməyəcəyini bildirən Amerika prezidenti Fələstin xalqına yenidən gözləmə mövqeyində durmağı tövsiyə edir. İsrailin təhlükəsizliyinin Amerika üçün çox əhəmiyyətli olduğunu deyən B.Obama demokratik prinsiplərin təbliğ olunduğu bir dövlətin başçısı kimi İsrail mövqeyindən çıxış etməklə İƏT və təşkilat üzvlərinin haqlı narazılığı ilə qarşılaşmışdır. Adı çəkilməsə də burada dinlərarası toqquşmaya meyllilik çox aydın şəkildə müşahidə olunmaqdadır.

Ümumilikdə 2009-2011-ci illər ərzində Fələstini suveren dövlət kimi tanıyanların sayında kifayət qədər artım müşahidə olunmuşdur. İƏT üzvlərindən Türkiyə və Tacikistan 2009-cu ildə, eyni ildə digər dövlətlərdən Dominikan Respublikası və Venesuela, 2010-cu ildə Argentina, Estoniya, Braziliya, Boliviya, Ekvador Fələstinin müstəqilliyini rəsmən tanımış, Rusiya, Çili, Qana kimi dövlətlər isə 2011-ci ildə bu dövlətin müstəqil əsaslarda fəaliyyətini dəstəkləyərək Fələstin dövlətini tanıdıqlarını açıqlamışlar. Eyni zamanda yuxarıda da qeyd olunduğu kimi, 116 ölkə qeyri-rəsmi səviyyədə Fələstinin bir dövlət kimi tanınması ətrafında geniş müzakirələr aparmışdır [11]. ABŞ və İsrail rəsmiləri isə bu addımı pisləyən bəyanatlarla kifayətlənməli olublar.

Fələstinin müstəqil dövlət kimi tanınmasını sürətləndirən hadisə bu ölkənin YUNESKO-ya daimi üzvlüyündən sonra, İsrailin ciddi tədbirlər görmək iddiasıyla çıxış edərək, köçürülən yəhudilər üçün Şərqi Qüds və Qərbi Şəriyyədə 2 min evlik məntəqənin tikintisinə qərar verilməsi ilə prosesin Fələstin xalqının xeyrinə dəyişməsinə səbəb oldu [17]. Belə ki, bu sərt addım dünya ictimaiyyəti tərəfindən narahatlıq və narazılıqla qarşılandı. Maraq doğuran məqamlar isə İsrailin müttəfiqləri olan Amerika, Fransa və İngiltərədən məsələ ilə bağlı gələn açıqlamalar olub. Hər üç dövlət rəsmiləri İsrailin tələsik addımını sülh danışıqlarını mənasız edəcəyi ilə həmfikir olmuşlar. Hətta İngiltərənin baş nazirinin birinci müavini Nik Kleq bu addımın düşünülməmiş və kortəbii addım olduğunu qeyd edərək İordan çayının Qərb sahilinə və Şərqi Qüdsə köçürülən yəhudi ailələri üçün salınacaq qəsəbələrin inşasına münasibət bildirərək bunu: ***“düşünülmüş vandalizm”*** adlandırmaqdan da çəkinməyib [17]. Dünyada söz sahibi olan bu dövlətlərin İsrailin qəsəbəsalma planının davam etdirilməsinə sərt reaksiya verməsi İƏT Baş katibliyində, Fələstin dövlətinin yaradılması yolunda ciddi mövqe olaraq yüksək qiymətləndirilmişdir. Ə.İhsanoğlu belə bir addımın atılmasının gec-tez baş verə biləcəyinin mümkün olduğunu deməsi təşkilata üzv olan ölkələr tərəfindən də birmənalı olaraq dəstəklənmişdir.

Siyasi ekspertlər 2011-ci ilin sonunda Fələstinin müstəqilliyinin tanınmasının mümkün olacağını proqnozlaşdırsalar da bu baş vermədi [22]. Lakin keçən ildə müşahidə olunan müsbət addımlar 2012-ci ilin sonuna qədər Fələstinin müstəqil dövlət kimi bütün dünya tərəfindən qəbul ediləcəyini zəruri edir. İsrailin son addımı yəhudi xalqının iradəsini əks etdirməsə də, bu hökumətə rəhbərlik edənlər bölgədə sülhün əldə olunması və Fələstinin suveren hüquq-

larının tanınmamasını özlərinin təhlükəsizliyinin təmin olunması kimi qəbul etməkdədirlər [18]. Belə nəticə çıxarmaq mümkündür ki, İsrail rəsmiləri bölgədə Fələstinsiz sülhün əldə olunmasının tərəfdarıdırlar. Bu isə fələstinlilərin hüquq və azadlıqlarının ciddi şəkildə pozulması və etnik təmizləmə siyasətindən başqa bir şey deyil. Lakin dərinləşən ziddiyyətlər iki xalqı bir-birinə düşmən etməməlidir. Hər iki tərəf mümkün olduğu qədər kompromisə gedərək bu torpaqlarda yaşamaq haqqlarını davam etdirə bilər. Qüdsün bölünməz olduğu burada yaşayan üç səmavi din mənsublarının tarix boyu bu ərazilərdə neçə nəsillərlə əvəz olunduğunu deməyə əsas verir.

İƏT-ə üzv olan 57 dövlət sırasında yer alan Azərbaycan Respublikası da təşkilatın Fələstinlə bağlı sülhməramlı fəaliyyətində müsəlman ölkələri ilə əməkdaşlığın davam etdirilməsinin vacibliyini önə çəkmişdir. Azərbaycan tərəfi bu təşkilatın fəal üzvlərindən olsa da, Fələstinin tanınması ilə bağlı konkret addım atmamışdır. Buna baxmayaraq Azərbaycan Respublikası Fələstin ilə əməkdaşlığı genişləndirərək bu ölkənin Bakıda səfirliyinin fəaliyyətini dəstəkləməkdədir. 2011-ci ilin 29 iyun tarixində Fələstin səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına müsbət təsir edərək əməkdaşlıq üçün yeni zəmin yaratmışdır [12].

2011-ci il sentyabr ayının 23-də ABŞ-ın Nyu-York şəhərində BMT Baş Assambleyasının 66-cı sessiyası çərçivəsində İƏT-ə üzv olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndirmə görüşündə çıxış edən Azərbaycanın xarici siyasət idarəsinin başçısı Elmar Məmmədyarov məsələyə münasibət bildirərək qeyd etmişdir: *"Bizim Fələstinlə bağlı narahatlığımız davam edir. Azərbaycan qardaş Fələstin xalqına sülh və sabitliyə nail olunması, **paytaxtı Şərqi Qüds** olmaqla, suveren və müstəqil Fələstin dövlətinin yaradılması istiqamətində atdığı addımları dəstəklədiyini bir daha bəyan edir və Fələstinin BMT-nin tamhüquqlu üzv olmaq istəyini tam dəstəkləyir. Biz İƏT-in baş katibi və onun işçi heyətinin təşkilatın möhkəmləndirilməsi və Fələstin xalqına lazım olan yardımın təmin edilməsi istiqamətində gördükləri işi yüksək qiymətləndiririk"* [9]. 2011-ci ilin dekabr ayında Azərbaycan - İƏT diplomatik münasibətlərinin 20-ci ildönümü tamam oldu [3, 166-167]. Ötən illər ərzində respublika təşkilatla çoxşaxəli əlaqələr qurmağa müvəffəq olmuşdur. Azərbaycan Respublikası həm İƏT çərçivəsində, həm də digər beynəlxalq qurumlarla əməkdaşlıq əlaqələrində müstəqil Fələstin dövlətinin elan olunması məsələsini birmənalı şəkildə dəstəkləyərək, bir müsəlman ölkəsi kimi Yaxın Şərqdə islam həmrəyliyinin bərqərar olunmasını arzu edir. Bu yolda İƏT-in Fələstinə yardımının davam etməsini vurğulayan E.Məmmədyarov münaqişənin həlli istiqamətində təşkilatın son illər ərzində həyata keçirdiyi siyasətinin Azərbaycan Respublikası tərəfindən tam dəstəkləndiyini bir daha diqqətə çatdırdı. Bu üzdən E.Məmmədyarovun tədbirdəki çıxışı Azərbaycan hökumətinin problemin həllində yaxından iştirak etməsini əks etdirir. Bu işdə İƏT rəhbərliyinin haqlı mövqeyinin Azərbaycan tərəfindən dəstəkləndiyini deyən E.Məmmədyarov təşkilatın Fələstinlə bağlı qəbul etdiyi qərarlara həssaslıqla yanaşıldığını bildirmişdir.

Problemin həll olunması baxımından təşkilata üzv ölkələrin həmrəylik nümayiş etdirməsinin zəruriliyi İƏT-in yüksək səviyyəli toplantılarında hər il geniş müzakirələrə səbəb olur [4]. Dünya enerji ehtiyatlarının yüksək faizinə malik olan bir çox müsəlman ölkələrinin balanslaşdırılmış siyasət yürüdərək Fələstin xalqına dəstək verməsində bir qədər zəiflik hiss olunsa da, İƏT baş katibliyinin yaranmış vəziyyətlə bağlı mütəmadi şəkildə Fələstin xalqını dəstəkləyən bəyanatlarla çıxış etməsi, son üç il ərzində müsəlman aləminin BMT-sini hərəkətə keçirmişdir demək mümkündür.

Təşkilatın fəal üzvlərindən olan Türkiyə Respublikası Fələstin xalqına humanitar yardım kampaniyasını genişləndirməkdədir. "Mavi Mərmərə" gəmisində baş verən hadisədən sonra bir müddət Türkiyə-İsrail münasibətlərində yaranan gərginliyin ardından Türkiyə tərəfi Fələstinə yardım proqramını dayandırmamış ,əksinə Yaxın Şərqdə baş verən siyasi böhranın tənzimlənməsinə bu gün də öz səylərini artırmışdır. Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan Fələstin probleminin həll olunmasını sürətləndirmək üçün beynəlxalq ictimaiyyətin İsrailə təzyiqinin artırılmasının müsbət nəticə verəcəyini qeyd edib: *"BMT İsrailə təzyiqi göstərməlidir"* deyən baş nazir problemin həllində BMT-nin missiyasının vacib olduğunu şərh etmişdir. Onun sözlərinə görə, BMT-də müəyyən islahatların aparılması və Təhlükəsizlik Şurasının beş daimi üzvü sisteminin ləğvi vacibdir [13]. R.T.Ərdoğanın narahatlığı Türkiyənin yüksək rəsmisi olaraq bu dövlətin iradəsini ifadə edir və münaqişənin tezliklə həll olunması ilə regionda sülh və sabitliyin bərqərar olunacağı fikrini açıq şəkildə ifadə edir.

Lakin son aylar ərzində regionda cərəyan edən hadisələr müsəlman ümmətini mürəkkəb siyasi mənzərə ilə qarşı-qarşıya qoymuşdur. Tunis, Misir, Liviya və ardından da Suriyada siyasi aktivliyin yayılmasının milli qırğınlara gətirib çıxardığı məlum olmuşdur. Regionda cərəyan edən belə siyasi vəziyyətin aradan qaldırılması istiqamətində İƏT müsəlman ölkələrində yaşanan *"ərəb baharı"*na biganə qala bilməmiş, bu işdə xarici qüvvələrin rolunu ciddi şəkildə tənqid etmişdir [2, 132]. Son Suriya hadisələri İƏT Baş katibliyində dərin narahatlıq doğurmuşdur. Ə.İhsanoğlu yaranan gərginliyin aradan qaldırılması işində Suriyanın İƏT və bu təşkilata üzv olan aparıcı müsəlman ölkələrinin iştirakı ilə danışıqlar aparılması müstəvisində problemin həllinin mümkün olduğunu bildirmişdir.

Bu ilin 14 fevral tarixində İƏT mətbuat katibi təşkilat yanında insan hüquqlarının müdafiəsi məqsədilə yaradılmış komissiyada üzv ölkələrin haqq və hüquqlarının qorunması işində daha yaxından iştirak etmək üçün məsləhətləşmə bürosunun imkanlarından istifadə etmək üçün geniş şərait yaradıldığını diqqətə çatdırmışdır [19]. Yeni yaradılan komissiya İƏT Baş katibliyinin müsəlman ölkələrinə hüquqi yardımının gücləndirilməsini və qurum tərəfindən siyasi dəstəyin effektivliliyinin artırılmasına xidmət edəcəkdir.

**Nəticə:** Müsəlman dövlətlərinə qarşı təcavüz aktlarına, müsəlman icmalarının hüquqlarının pozulmasına İƏT-in vaxtında etiraz səsini ucaltması

müsəlman ölkələri arasında birliyin möhkəmlənməsinə və bu dövlətlərin, müsəlman xalqlarının qanuni hüquqlarının təmin olunmasına, eyni zamanda dünya miqyasında islam sivilizasiyasının, mədəni, tarixi abidələrinin mühafizə olunmasına kömək edir [5, 3]. Bütün bunlarla yanaşı ziddiyyətli məqamların hökm sürdüyü Yaxın Şərq regionunda Fələstin xalqının milli azadlıq mübarizəsi davam etməkdədir. Müstəqilliklərinin bərqərar olunması yolunda İƏT dini bir olan müsəlmanlara son illər ərzində siyasi dəstəyini artırmışdır. Bu baxımdan İslam Əməkdaşlıq Təşkilatının BMT ilə sıx münasibətləri öz müsbət nəticəsini verməkdədir. Hər iki qurum dünyada sülhməramlı fəaliyyəti ilə digər təşkilatlardan fərqlənərək dünya xalqlarının və bu xalqlar arasında suveren hüquqlarını bərpa etmək uğrunda mübarizə aparan dinc fələstinlilərin müstəqil dövlət qurmaq arzusunun reallaşmasına ciddi dəstək verməyə davam edir.

Qüds tarix boyu hər iki xalqın, Fələstin ərəbləri və yəhudilərin mehriban qonşuluq şəraitində yaşadıqları torpaq olmuşdur. Beynəlxalq qurumların bu istiqamətdə, dövlətlər arasında dialoqun genişlənməsi yolunda hər iki xalqa dəstəyi qaçılmaz olaraq qalır.

## ƏDƏBİYYAT


1. Əhmədov A. İslam Konfransı Təşkilatının təşəkkül tarixindən / Azərbaycan Tarixi Muzeyinin əsərləri. Bakı: Elm, 2006, s. 191-200.
2. Əhmədov A. İslam Əməkdaşlıq Təşkilatının nüvə təhlükəsizliyi və atom enerjisindən dinc məqsədlərlə istifadə edilməsi məsələsində mövqeyi / Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri IV beynəlxalq konfransın materialları, Bakı, 23-25 noyabr 2011.
3. Əhmədov A. Azərbaycan Respublikası və İslam Əməkdaşlıq Təşkilatı: diplomatik münasibətlərdə 20 il. / Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, № 3, 2011, s. 166-173.
4. Əhmədov E. İslam Konfransı Təşkilatının yaradılmasından 40 il, Azərbaycanın bu beynəlxalq təşkilata qəbul olunmasından 18 il keçir / "Xalq qəzeti" Bakı, 2010, 8 yanvar, № 4.
5. İbayev V. İslam Konfransı Təşkilatı. Bakı: Elm, 1998, 87 s.
6. İslam. Qısa məlumat kitabı. / rus dilindən tərcümə edən Qəhrəmanov A. Bakı: ASE Baş redaksiyası, 1989, 160 s.
7. Eyyubova S. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2000). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı: 2007, 26 s.
8. Quliyeva S. İslam Konfransı Təşkilatı islam dünyasının strateji maraqlarının müdafiəçisidir / "Dövlət və din" ictimai fikir toplusu. Apostrof, sentyabr 2008, № 3(7), s. 58-69.
9. BMT Baş assambleyasının 66-cı sessiyası. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan ölkələrin xarici işlər nazirlərinin illik əlaqələndirmə görüşü // www.mfa.gov.az
10. Rusiya Fələstini müstəqil olaraq tanıdı // www.islamtimes.org
11. Fələstinin müstəqilliyini tanıyan ölkələr // www.deyerler.org
12. Fələstinin Azərbaycanda səfirliyinin rəsmi açılışı olub // www.az.apa.az
13. İsrailə təzyiq Fələstin problemini həll edəcək // www.trend.az
14. İslam Əməkdaşlıq Təşkilatı YUNESKO-nun qərarından məmnundur // www.sizinyol.com
15. Dünya xəbərləri. // www.azeritv.irib.ir
16. YUNESKO-ya daha bir zərbə // www.qaynar.net
17. Британский вице-премьер назвал строительство поселений вандализмом // www.jewish.ru
18. Израиль-Палестина: есть контакт, нет согласия // www.vestikavkaza.ru
19. ОИС займется вопросами прав человека // www.islamnews.ru

20. Обама: США наложат вето на членство Палестины в ООН // www.bbc.co.uk
21. OIC's role in the Islamic world // www.arabnews.com
22. Human rights in Palestine and other occupied Arab territories. Report of the United Nations Fact-Finding Mission on the Gaza Conflict. // www.oic-oci.org

## ИЗРАИЛЬСКО-ПАЛЕСТИНСКИЙ КОНФЛИКТ В БЛИЖНЕВОСТОЧНОЙ ПОЛИТИКЕ ОРГАНИЗАЦИИ ИСЛАМСКОГО СОТРУДНИЧЕСТВА (ОИС): НЫНЕШНЕЕ СОСТОЯНИЕ

**А.П.АХМЕДОВ**

### РЕЗЮМЕ

ОИС с момента своего создания чувствительно относится к вопросу создания независимого Палестинского государства. Данная организация является защитником стратегических интересов всех ее членов, включая Палестину. В последние годы генеральный секретариат ОИС на всех конференциях государств-участниц организации на высшем уровне призывает все страны мира встать на защиту справедливой позиции этого государства. Принятие же в 2011 г. Палестины в члены ЮНЕСКО привлекло взгляды мирового сообщества к этому конфликту и потребовало новый подход к его разрешению.

В данной статье исследуется однозначная поддержка, оказываемая Организацией Исламского Сотрудничества и входящими в эту организацию странами суверенному Палестинскому государству, а также единая позиция мусульманских стран по вопросу о восстановлении исламской солидарности.

**Ключевые слова:** ОИС, ООН, Ближний Восток, Иерусалим, ислам, сотрудничество, организация, диалог, государство, мусульмане, история, политический, регион

## THE ISRAEL-PALESTINE CONFLICT IN THE NEAR-EASTERN POLICY OF THE ORGANIZATION OF ISLAMIC COOPERATION (OIC): THE PRESENT CONDITION

**A.P.AHMADOV**

### SUMMARY

OIC, from the moment of its establishment sensitively concerned with the question of establishment of the independent Palestinian state. The organization is the defender of strategic interests of all its members, including Palestine. Recent years, General Secretary OIC, at all conferences of the states-participants of the organization, urges all countries of the world to rise on protection of the fair position of this state. Acceptance in 2011 of Palestine as a member of UNESCO has involved world community in this conflict and demanded a new approach to its solution.

The given article researches the univocal support rendered by the Organization of Islamic Cooperation and the countries entering into this organization to the sovereign Palestinian state, and the uniform position of the Muslim countries of restoration of Islamic solidarity is investigated.

**Key words:** OIC, the United Nations, the Near East, Jerusalem, Islam, cooperation, the organization, dialogue, the state, Moslems, history, political, region